## Kazus

Cənab X məsləhətçi həkim idi və iki qadın pasiyentinə qarşı nalayiq hərəkətlərə görə iki bənd üzrə ittiham olunurdu. Pasiyentlərdən biri olan ST məhkəmə araşdırmasından əvvəl ölmüş, amma ölümündən əvvəl polisə ifadə vermişdi, həmin ifadə andlı iclasçılar üçün oxunmuşdu. Hakim bildirdi ki, ifadənin məzmunu ittihamın bir bəndi üzrə cinayət təqibi üçün həlledici əhəmiyyət daşıyır, çünki nəyin baş verdiyinə dair hər hansı digər birbaşa sübut yoxdur. Müdafiə tərəfi razılaşdı ki, ifadə məhkəmə araşdırması zamanı andlı iclasçılara oxunarsa, onlar digər şahidləri çarpaz dindirmək yolu ilə onu təkzib edə bilərlər. Məhkəmə araşdırması zamanı andlılar bir neçə müxtəlif şahidin, o cümlədən digər şikayətçinin və ölmüş şahidin iki rəfiqəsinin ifadələrini dinlədir, mərhum insidentdən dərhal sonra onlara baş verənlər barədə məlumat vermişdi. Müdafiə tərəfinə imkan yaradıldı ki, şifahi ifadə vermiş bütün şahidləri çarpaz dindirsin. Yekun çıxışında işə baxan hakim andlılara xatırlatdı ki, onlar ST-nin ifadə verdiyini və ya çarpaz dindirildiyini görməyiblər və iddiaların təkzib edildiyinin şahidi olmayıblar. Birinci ərizəçi ittihamın hər iki bəndi üzrə məhkum olundu.

Cənab T, digər ittihamlarla yanaşı, qrup halında hücum etməklə bilərəkdən xəsarət yetirmədə ittiham olunurdu. Hadisə yerində dindirilənlərin heç biri iddia etməmişdi ki, ərizəçinin zərərçəkənə hücum etdiyini görüblər, amma orada olanlardan biri (T) iki gün sonra polisə ifadəsində hücum edənin ikinci ərizəçi olduğunu bildirmişdi. Məhkəmə araşdırmasında ittiham tərəfi T-nin ifadəsinin oxunmasına icazə verilməsi üçün vəsatət qaldırdı və belə əsas gətirdi ki, o, məhkəməyə gəlməkdən bərk qorxub. İşə baxan hakim vəsatəti təmin etdi və bu qərarını belə əsaslandırdı ki, T-nin və bir polis əməkdaşının verdiyi ifadəyə əsasən, T-ni hədələyiblər (hərçənd ki, onu hədələyən ikinci ərizəçi olmayıb) və xüsusi tədbirlərin tətbiqi, məsələn, arakəsmə arxasından ifadə verməsi onun qorxularını azalda bilməyəcək. Beləliklə, T-nin şahid ifadəsi onun öz iştirakı olmadan andlılara oxundu. İkinci ərizəçi də ifadə verdi. Hakim yekun çıxışında andlılara xəbərdarlıq etdi ki, T-nin ifadəsinə istinad etmələri risklidir, çünki həmin ifadə çarpaz dindirmə zamanı yoxlanılmayıb. Ərizəçi məhkum edildi və apellyasiya məhkəməsi ittiham hökmünü qüvvədə saxladı.

Hər iki ərizəçi onların ədalətli məhkəmə araşdırması hüquqlarının pozulması əsası ilə Avropa Məhkəməsinə ərizə verərək şikayət etdilər

Ərizəçi tərəfin şikayətlərinin əsasları nədir?

Dövlət tərəfi müdafiəni necə quracaq?